# Qarabağ və Şərqi Zəngəzurda həyat qaynayır

## Böyük qayıdış davam edir, xarabalıqlar yenidən cənnətməkana çevrilir

**Ərazilərinin təxminən 20 faizi 30 ilə yaxın əsarət altında qalan, bir milyona yaxın vətəndaşı dədə-baba torpağından didərgin salınan Azərbaycan xalqı, dövləti bu işğalla heç vaxt barışmayıb. Elə 2020-ci ildə tariximizin səhifələrinə qızıl hərflərlə yazılan Vətən müharibəsindəki misilsiz qələbəmiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli islahatlar, dövlətin siyasi iradəsi, möhkəm əsaslara malik xalq-iqtidar birliyi dövlət başçımızın, xalqımızın, ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Ermənistanın kapitulyasiya aktı imzalamasından sonra əzəli torpaqlarımızda bərpa işlərinə başlanması, həmçinin ötən müddət ərzində əldə olunan uğurlar, nailiyyətlər dövlətimizin gücünün bariz göstəricisidir.**



İşğaldan azad edilmiş bütün ərazilər hazırda böyük quruculuq və bərpa dövrünü yaşayır, Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, minlərlə keçmiş məcburi köçkün doğma ocağına qayıdır, bu yurd yerlərində həyat canlanır. Vətən müharibəsindən sonra əsas hədəflərdən biri infrastrukturun bərpası və bölgəyə həyatın qaytarılması idi. Bu məqsədlə ilkin mərhələdə yollar, körpülər, enerji xətləri, su təchizatı sistemləri və rabitə şəbəkələri yenidən quruldu. İşğaldan azad olunmuş ərazilərdə quruculuq yalnız fiziki infrastrukturla məhdudlaşmır. "Ağıllı kənd" və "ağıllı şəhər" layihələri çərçivəsində müasir texnologiyaların tətbiqi ilə dayanıqlı yaşayış məntəqələri salınır. Ağalı kəndi bu baxımdan pilot layihə kimi uğurla həyata keçirilmiş və qayıdışın başlanğıcı olmuşdur. Kənddə reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri üzrə həyata keçirilib. Ağalıda inşa olunan 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı da yalnız alternativ enerji mənbələrindən əldə edilir.

Ölkəmiz Şanlı Qələbəmizdən dərhal sonra başlanan bərpa işlərini öz daxili imkanları hesabına həyata keçirir. Dövlət Statistika Komitəsinin hesabatına əsasən, təkcə 2025-ci ilin yanvar-iyun ayları ərzində işğaldan azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 1 milyard 989 milyon 798 min manat vəsait sərf edilib. Hesabat dövründə ən çox vəsait Kəlbəcər (408 mln. 11 min manat), Laçın (303 mln. 122,1 min manat) və Ağdam (260 mln. 833,3 min manat) rayonlarına ayrılıb. Cari ilin yanvar-iyun ayları ərzində Azərbaycanda bütün maliyyə mənbələrindən əsas kapitala 8 milyard 73,5 milyon manat vəsait yönəldilib ki, bunun da 6 milyard 313,5 milyon manatı tikinti-quraşdırma işlərinə sərf edilib. Beləliklə, hesabat dövründə azad olunmuş ərazilər üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsait respublika üzrə tikinti-quraşdırma işlərinə sərf olunan vəsaitin 31,5 faizini təşkil edib.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə bu ilin dövlət büdcəsindən 4 milyard manat vəsaitin ayrılması proqnozlaşdırılıb. Cari ilin ilk 6 ayı ərzində isə dövlət büdcəsindən illik nəzərdə tutulmuş vəsaitin 38,8 faizi, yəni 1 milyard 552,4 milyon manatı istifadə olunub.

Qarşıya qoyulan məqsədlərə addım-addım yaxınlaşdıqca, layihələr reallaşdıqca yurduna qovuşan keçmiş məcburi köçkünlərin sayı artır, statistika hər həftə, hər ay yenilənir, qayıdış karvanlarının ünvanları dəyişir. Ötən həftə daha iki yeni ünvana köç olub. Ağdərə rayonunun Kolatağ və Vəngli kəndləri ilk qayıdış karvanlarını qarşılayıblar. Bir vaxtlar göz yaşları içində ev-eşiklərindən didərgin düşmüş insanlar indi sevinc, xoşbəxtlik və güvən hissi ilə yaşamaq üçün doğma ocaqlarına qayıdırlar. Onların hər biri əmindir ki, qüdrətli dövlətimiz sayəsində bu geri dönüş dayanıqlı və təhlükəsiz olacaq. Sakinlərinə qucaq açan digər ərazilərimizdə olduğu kimi, bu kəndlərdə də yurd həsrəti ilə yaşamış insanlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar, yeni yaradılan şərait, tikilən evlər, müasir infrastruktur dövlətimizin məcburi köçkünlərə verdiyi dəyərin göstəricisidir. Doğma yurdlarına qayıdan kənd sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirlər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirir, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyirlər.

Böyük Qayıdışın birinci mərhələsi bitənədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin, 34 min 500 ailənin daimi məskunlaşması təmin ediləcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə icra olunan Böyük Qayıdış Proqramı çərçivəsində bu gün artıq 20 yaşayış məntəqəsində, 5 şəhər və 15 kənddə məskunlaşma reallaşdırılıb, 17438 nəfər (4392 ailə) əzəli torpağına qovuşub. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 571 ailə (2091 nəfər) Laçın şəhərində, 824 ailə (3141 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 376 ailə (1409 nəfər) Şuşa şəhərində, 86 ailə (346 nəfər) Xocalı şəhərində, 659 ailə (2856 nəfər) Cəbrayıl şəhərində, 197 ailə (902 nəfər) Xocalı rayonunun Ballıca kəndində, 159 ailə (566 nəfər) Ağdərə rayonunun Həsənriz kəndində, 180 ailə (592 nəfər) Ağdərə rayonunun Suqovuşan kəndində, 187 ailə (779 nəfər) Ağdam rayonunun Sarıcalı kəndində, 277 ailə (1176 nəfər) Ağdam rayonunun Kəngərli kəndində, 89 ailə (363 nəfər) Laçın rayonunun Bəylik kəndində, 188 ailə (737 nəfər) Ağdam rayonunun Xıdırlı kəndində, 28 ailə (125 nəfər) Xocalı rayonunun Təzəbinə kəndində, 52 ailə (184 nəfər) Xocalı rayonunun Xanyurdu kəndində, 26 ailə (89 nəfər) Ağdərə rayonunun Kolatağ kəndində, 22 ailə (83 nəfər) Ağdərə rayonunun Vəngli kəndində məskunlaşıb.

İşğaldan azad olunmuş ərazilərdə həyatın bərpası və doğma yurduna dönən vətəndaşlarımız üçün yaradılan şərait Azərbaycan dövlətinin gücünü, xalqın iradəsini və Qarabağ naminə birləşən ruhu nümayiş etdirir. Əminliklə deyə bilərik ki, Qarabağ və Şərqi Zəngəzurda başlayan yeni həyat tezliklə ölkəmizin gələcək inkişafına xidmət edən ən parlaq səhifələrdən biri olacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 19 avqust (№173).- S.11.